# Uzunmüddətli inkişafın dayaqlarından biri



**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə bir daha göstərdi ki, rəqəmsallaşma dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sırada dövlət-vətəndaş münasibətlərinin yeni mərhələyə qədəm qoyması hədəflərdən biri kimi özünü göstərir.**

Milli Məclisin deputatı Aydın Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, müşavirədə vurğulanan əsas məqam dövlət informasiya sistemlərinin vahid arxitektura əsasında qurulması və inteqrasiyası idi. Bu gün müxtəlif qurumlarda formalaşmış məlumat bazalarının paralel və əlaqəsiz fəaliyyəti həm vaxt itkisinə, həm də resursların səmərəsiz istifadəsinə səbəb olur. "Yeni rəqəmsal arxitektura isə məlumatın vahid platformada toplanmasını, sistemlər arasında interoperabelliyin təmin olunmasını və xidmətlərin daha sürətli, şəffaf və əlçatan formada təqdim edilməsini nəzərdə tutur. Bu, vətəndaşın vaxtına qənaət deməkdir, eyni zamanda prosesi avtomatlaşdıran və subyektiv amillərdən qaynaqlanan prosesləri tənzimləməyən modeldir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, rəqəmsal transformasiyanın mühüm istiqamətlərindən biri də süni intellekt və onun idarəetmədə tətbiqidir. Məqsəd effektiv idarəetmə məlumatı toplamaqla yanaşı, həmin məlumatı analiz edərək düzgün qərar verən struktura çevrilməkdir. Bu struktur bir çox data əsaslı yanaşma risklərinin əvvəlcədən müəyyənləşdirilməsinə, resursların daha düzgün bölüşdürülməsinə və strateji planlaşmaya imkan yaradacaq. Bu baxımdan rəqəmsal arxitektura ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm dayaqlarından biri kimi çıxış edir.

Rəqəmsallaşmanın texniki infrastrukturunun qurulması ilə məhdudlaşmadığını deyən A.Hüseynov bildirib ki, bu proses güclü kibertəhlükəsizlik sistemini də tələb edir: "Dövlət informasiya resurslarının təhlükəsizliyi və şəxsi məlumatların müdafiəsi rəqəmsallaşmada etimadın əsas şərtidir. Əks halda texnoloji irəliləyişlər risk faktoruna çevrilə bilər. Ona görə də milli səviyyədə koordinasiyalı və müasir standartlara cavab verən təhlükəsizlik mexanizmlərinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın qarşısında duran vacib məsələlərdən biri də insan kapitalının bu transformasiyaya uyğunlaşdırılmasıdır. Rəqəmsallaşma bu sahədə bacarığı olan kadrlar tələb edir. Təhsil sistemində kodlaşdırma, data analitikası və süni intellekt üzrə biliklərin genişləndirilməsi, dövlət qulluqçularının yeni idarəetmə alətlərinə adaptasiyası strateji zərurətdir".

Deputat vurğulayıb ki, rəqəmsal arxitektura həm də iqtisadi transformasiya deməkdir. Startap ekosisteminin inkişafı, innovativ sahibkarlığın təşviqi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi ölkənin qeyri-neft sektorunun inkişafına təkan verə bilər. Texnologiyaya əsaslanan iqtisadi model rəqabət qabiliyyətini artırır və Azərbaycanı regional rəqəmsal mərkəzə çevirmək imkanı yaradır. Yeni rəqəmsal arxitektura həm də yeni strateji prosesdir. Əsas məsələ qəbul olunan qərarların ardıcıl icrası, institusional koordinasiya və cəmiyyətin bu prosesə fəal şəkildə cəlb edilməsidir. Rəqəmsallaşma bu gün atılan addımların nəticəsində formalaşır.

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 17 fevral (№ 30).- S.9.